# Birinci Dünya müharibəsi: səbəblər və nəticələr



***Birinci Dünya müharibəsi 108 il bundan, 1914-cü il iyulun 28-də dünyanın böyük güclərinin birləşdiyi "Antanta" və "Üçlər İttifaqı" arasında başlanıb. Həmin dövrdə dünyada mövcud olan 59 müstəqil dövlətdən 38-i bu və ya başqa şəkildə savaşda iştirak edibdir.***

1914-cü ilin iyunun 28-də Sarayevo şəhərində "Gənc Bosniya" serb-boşnak inqilabı təşkilatının üzvü olan Qavrilo təşkil olunan sui-qəsd nəticəsində Avstriya-Macarıstan imperiyasının vəliəhdi hersoq Frans Ferdinandı öldürdü. Almaniyanın müttəfiqi olan Avstriya-Macarıstan dərhal Serbiyaya ağır şərtlərlə ultimatum təqdim etdi. Serbiyanın ultimatumu qəbul etmədi və nəticədə, dünya müharibəsi başlandı..

Sonrakı hadisələr çox sürətlə cərəyan edib. Almaniya avqustun 3-də Fransaya, səhəri gün isə Belçikaya müharibə elan edib, Fransa isə Rusiyanın tərəfini tutub. İngiltərə Almaniyaya müharibə elan edərək qoşunlarını Fransaya köməyə göndərib. Avqustun 6-da isə Avstriya-Macarıstan Rusiyaya qarşı hərbi kompaniyaya start verib.

Hərbi ekspert Etiibar Verdiyev qeyd edir ki, XX əsrin əvvəllərində Avropa ölkələrinin iki koalisiyası – "Antanta" (Rusiya, ABŞ, İngiltərə, Fransa) və "Üçlər İttifaqı" (Almaniya, Avstriya-Macarıstan və İtaliya) arasındakı ziddiyyətlər olduqca kəskinləşmişdi. Belə ki, ayrı-ayrı qitələrdəki müstəmləkələrin, təsir sferalarının və xammal bazarlarının yenidən paylanılması uğrunda mübarizə barışmaz həddə çatmışdı.

Birinci Dünya müharibəsi ərəfəsində Avropa dövlətləri arasında maraq toqquşmaları baş verirdi. "Atlanta" üzvü olan Böyük Britaniya hərbi-iqtisadi cəhətdən sürətlə güclənən Almaniyanı özünə cidi rəqib kimi görürdü. İngilislər "özlərininki" hesab etdiyi Şərqi və Cənub-Qərbi Afrika bölgələrinə Almaniyanın nüfuz etməsi ilə barışmaq istəmirdilər.

"Antanta"nın digər üzvü Fransa 1870-ci ildə Fransa-Prussiya müharibəsində Almaniya tərəfindən aldığı məğlubiyyətin əvəzini çıxmaq istəyir, 1871-ci ildə alınan Elzas və Lotaringiyanı geri qaytarmaq iniyyətində idi.

"Antanta"nın başqa bir üzvü Rusiya Aralıq dənizinə donanmasının sərbəst çıxışını təmin etmək üçün Osmanlı imperiyasının nəzarətində olan Dardanel boğazını ələ keçirməyə çalışırdı. Rusiya Berlin-Bağdad (1898) dəmir yolunun tikintisini Almaniyanın özünə qarşı düşmənçilik addımı kimi qiymətləndirirdi.

Bundan başqa, ruslar bütün slavyan xalqlarına hakim olmaq istəyirdilər və buna görə Balkanlarda yaşayan serb və bolqarların Avstriya və Osmanlı əleyhinə etirazlarını daim dəstəkləyirdilər.

ABŞ müharibənin başlanğıcında "Antanta" üzvü olsa da, tərəfsizliyini qorumaq arzusunda idi. Prezident Vudro Vilson hərbi əməliyyatların uzanacağı təqdirdə Birləşmiş Ştatlar üçün mümkün mənfi nəticələrdən ehtiyat edirdi.

İndi isə "Üçlər İttifaqına" daxil olan ölkələrin maraqlarına nəzər salaq. Almaniya iqtisadi cəhətdən inkişaf etmiş bir ölkə olaraq, Avropa qitəsində hərbi, iqtisadi və siyasi hökmranlıq etməyə çalışırdı. Almanlar yeni bazarlara ehtiyac duysalar da, onlar müstəmləkələr uğrunda mübarizəyə 1871-ci ildən sonra başlaya bildilər. Onlar İngiltərə, Fransa, Belçika, Hollandiya və Portuqaliyanın müstəmləkələrində bərabər hüquqlar əldə etməyə can atır, "Antanta"nı isə özünə zərbə vurmaq məqsədilə yaradılan hərbi ittifaq kimi qiymətləndirirdilər.

Avstriya-Macarıstan imperiyası çoxmillətli olduğundan Avropada daimi qeyri-sabitlik qaynağı rolunu oynayırdı. 1908-ci ildə ələ keçirdiyi Bosniya və Herseqovinanı əldə saxlamağa çalışırdı. Avstriya, həmçinin Rusiyaya qarşı çıxırdı, çünki ruslar həm Balkanlarda, həm də Serbiyada bütün slavyanların müdafiəçisi rolunu üzərinə götürməyə çalışırdı.

Birinci Dünya müharibəsindən əvvəl Osmanlı imperiyası artıq zəifləmişdi. 1914-cü ilin avqustunda Almaniya ilə bağlanan müqavilə Osmanlının birbaşa hərbi əməliyyatlarda iştirakını tələb etməsə də, bunu istisna da etmirdi. Hələ də böyük bir imperiya olaraq qalmaqda davam edən Osmanlı, əvvəl itirdiyi əraziləri qaytarmağa, əlində qalanları isə qorumağa çalışırdı.

Müharibə ərəfəsində "Üçlər İttifaqı"nın hərbi imkanları daha yüksək qiymətləndirilirdi. Almaniya və Avstriya-Macarıstan ağır silahların sayına görə, Rusiyadan və Fransadan bir neçə dəfə üstün idi. Almanlar gündəlik 250 min mərmi istehsal edə bilən yüksək potensiala malik hərbi sənaye kompleksi yarada bilmişdilər. Müqayisə üçün deyək ki, Böyük Britaniya həmin illərdə ayda cəmi 10 min mərmi istehsal edə bilirdi.

Birinci Dünya müharibəsi dünya tarixində son dərəcə ağır və dağıdıcı müharibə kimi tarixdə ad çıxarmışdır. Müharibədə təxminən 73.5 milyon əsgər müharibədə iştirak etmişdir. 9,5 milyon nəfər saysız-hesabsız ağır savaşlarda həlak olmuşdur. Birinci Dünya müharibəsində 20 milyondan çox adam yaralanmış, 3.5 milyon nəfər ömürlük şikəst olmuşdur.

Hər bir savaşın əvvəli olduğu kimi, sonu da olur. 1918-ci ilin əvvəllərində artıq müharibənin "Atlanta"nın xeyrinə başa çatacağı məlum idi. Birinci Dünya müharibəsinin sona çatması haqqında "Versal müqaviləsi 28 iyun 1919-cu ildə Paris yaxınlığındakı keçmiş Fransa kralının Versaldakı məşhur iqamətgahında imzalandı.

Qeyd etmək lazımdır ki, atəşkəs müqaviləsi 1918-ci ilin noyabrın 11-də bağlansa da, müharibədə döyüşən tərəflərin rəhbərlərinə sülh müqaviləsinin əsas müddəalarını birgə hazırlamaq üçün yarım il tələb olunmuşdur.

"Versal müqaviləsi" qalib "Antanta" ölkələri (ABŞ, Fransa, Böyük Britaniya) və məğlub edilən Almaniya arasında bağlandı. Daha əvvəllər Almaniyaya qarşı koalisiyanın üzvü olan Rusiya digər "Antanta" üzvlərindən xəbərsiz, 1918-ci ildə Almaniya ilə seperat "Brest-Litovsk sülh müqaviləsi"ni imzalamışdı.

Sovet Rusiyası Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan və Türkiyə ilə bağladığı sülh müqavilələrinə əsasən, Polşa, Litva, Belarus və Latviya üzərindəki suverenlikdən imtina etmişdi. Rusiya Ukraynadan, Finlandiyadan, Latviyadan və Estoniyadan qoşunları çıxarmağa, ordu və donanmanın tam şəkildə təxris edilməsinə razılıq vermişdi, hətta Qars, Ərdahan və Batumidən də imtina etmişdi.

Separatçı "Brest-Litovsk" sülh müqaviləsini imzaladığına görə, Rusiyanın nə Paris Sülh Konfransında, nə də "Versal müqaviləsi"ndə iştirakına icazə verilmədi. Birinci Dünya müharibəsində böyük insan itkisinə məruz qalan Rusiyaya heç bir kompensasiya da ödənilmədi, əksinə əvvəllər əldə etdiyi bir çox əraziləri əsl sahiblərinə qaytarmalı oldu.

"Versal müqaviləsi"nin əsas müddəası Almaniyanın qeri-şərtsiz müharibənin səbəbkarı olduğunu qəbul etməsindən ibarət oldu. Başqa sözlə, dünya müharibəsinə görə tam məsuliyyət Almaniyanın üzərinə qoyuldu. Bunun nəticəsində misli görünməyən sanksiyalar tətbiq edildi. Almaniyanın qalib ölkələrə ödədiyi ümumi məbləğlər qızılla 132 milyon marka (1919-cu ilin qiyməti ilə) təşkil edirdi. Son ödənişlər 2010-cu ildə həyata keçirildi, yəni Almaniya Birinci Dünya müharibəsinin "borclarını" yalnız 92 ildən sonra tam ödəyə bildi.

Almaniyanın bütün müstəmləkələri "Antanta" və Almaniyaya qarşı koalisiya üzvü olan ölkələr arasında bölündü. Almaniya xeyli ərazi itkisinə məruz qaldı: Elzas və Lotaringiya Fransaya, Şərqi Prussiya Polşaya verildi, Qdansk (Danzig) isə azad şəhər olaraq tanındı.

Bundan başqa, Almaniya ordusu əhəmiyyətli dərəcədə, 100 min nəfərə qədər azaldıldı. Almaniya hərbi sənayesi əslində mövcudluğunu dayandırmaq məcburiyyətində qaldı. Bundan əlavə, Reyn zonasında qoşun və hərbi texnika yerləşdirmək qadağan edildi.

"Versal müqaviləsi"nin ağır şərtləri, müharibə təzminatlarının ödənilməsi, bütöv bir xalqın təhqir edilməsi 1930-cu illərin əvvəllərində Almaniyada Adolf Hitlerin başçılığı ilə nasistlərin hakimiyyətə gəlməsinin əsas şərtləri sayılır.

Birinci Dünya müharibəsindən ən çox qazanan isə ABŞ oldu. Belə ki, dünya savaşına ən cox xarici borcu olan dövlət kimi başlayan Birləşmiş Ştatlar müharibəni borc verən kreditor ölkə kimi bitirdi.

***Hazırladı:***
***M.HACIXANLI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 29 iyul.- S.6.